Şahnaz xanım istəyir öz dünyasından razı qalsın, ya

*P.S. "Mədəni-maarif"in dəyərli oxucularının diqqətinə şairənin bir neçə şerini veririk.*

## Göy-gölüm

***Səcdə etdim başındakı taca mən,***
***Görüşünə gəldim qaça-qaça mən.***
***Sevinə-sevinə, uça-uça mən,***
***Zümrüd gözlü, qız ismətli Göy-gölüm.***

***Bir dünyasan bu dünyanın içində,***
***Bir gözəl yox sən boyda, sən biçimdə,***
***Səni görüb sevinc olur qəmim də,***
***Zümrüd gözlü, qız ismətli Göy-gölüm.***

***Sən Gəncəmin mirvarisi, naxışı,***
***Kəpəzimin yüz mənalı baxışı,***
***Şahnazam, arzudan doğan göz yaşım,***
***Zümrüd gözlü, qız ismətli Göy-gölüm.***

## Bənövşə

***Niyə dinib, danışmırsan,***
***Sən olmusan lal, bənövşə.***
***Sənin kimi gözəl varmı,***
***Yanağında xal, bənövşə.***

***Sən başını gəl uca tut,***
***Dərdini, qəmini unut,***
***Nə dolmusan bulud-bulud?!***
***Etmə min xəyal, bənövşə.***

***Belə qalma kol dibində,***
***Nəbati var Üçtibində,***
***Gözü qalıb Vaqifin də,***
***Sən ey məhcəmal, bənövşə.***

***Qoy mən öpüm yanağından,***
***Yara həsrət dodağından,***
***Şərbət axır buxağından,***
***Şəbnəmləri bal, bənövşə.***

***Şahnazı ağlatma, güldür,***
***Dərdin nədir, ona bildir.***
***El söyləyir neçə ildir,***
***Gözündə vüsal, bənövşə.***

## Atam gəlsin

*Tükənmir həsrətim, od olub yerim,*
*Qayğılı, qayğısız keçir günlərim,*
*Bir-birini əvəz edir illərim,*
*Atam gəlsin, atam gəlsin, ay ellər.*

*İstərəm telimə bir sığal çəkə,*
*Körpə təki yenə nazımı çəkə,*
*Uşaqlıq illərim qayıda bəlkə,*
*Atam gəlsin, atam gəlsin, ay ellər.*

*Yaşlı gözlərimi öpüb, silən yox,*
*Bu dərdimi duyub, halım bilən yox,*
*Nə bir gedənim yox, nə bir gələn yox,*
*Atam gəlsin, atam gəlsin, ay ellər.*

## Dünya

*Aldada-aldada göz yaşı verdin,*
*Mən sənin nəyindən yazım, a dünya!*
*Namərd əllərində bir oyun olub,*
*Puç oldu diləyim, arzum, a dünya!*

*Müqəddəs bilərək gəldim səcdənə,*
*Sənə dua etdim, mən dönə-dönə,*
*Tələ qurursanmış sən mənə, demə –*
*Tufana qərq oldu yazım, a dünya!*

*Hər hiylən ümidim güman eylədi,*
*Günəşli günümü duman eylədi,*
*Nəğməm, avazım da aman eylədi,*
*Əldə neyə döndü sazım, a dünya!*

*Sevdalı ömrümü edərək yarı,*
*Tuşladın tikanı könlümə sarı,*
*Qırma son ümidim, qoy onu barı,*
*Qızılgül ətrinə yozum, a dünya!*

*Şahnazam, səcdənə daha gəlmərəm,*
*Dərdim pünhan edib, dözər, gülmərəm,*
*Mən səni özümə həmdəm bilmərəm,*
*Taparam hər dərdə dözüm, a dünya,*
*Mən sənin nəyindən yazım, a dünya!*

## Qurban olum

*Ümummilli liderimiz Heydər Əliyevin əziz Zərifəsinin heykəli önündə keçirdiyi hisslərlə bağlı yazmışam.*

*Məzar heykələ doğru,*
*Baxışına qurban olum.*
*Ağır-ağır, qəmli-qəmli,*
*Yerişinə qurban olum.*

*Dolanıb heykələ baxır,*
*Cismimi yandırıb-yaxır,*
*İçindən çaylarmı axır?*
*Yağışına qurban olum.*

*Bu nə həsrət, bu nə qəmdi,*
*Qəlbin duman, gözün nəmdi,*
*Allah, Allah, nə aləmdi?!*
*Yaz, qışına qurban olum.*

*Dodaqda donubdu sözün,*
*Bulud tək dolubdu gözün,*
*Qəmi dağıt, gülsün üzün,*
*Göz yaşına qurban olum.*

*Qürur duyuram görəndə,*
*Özün vətənsən vətəndə,*
*Tariximin sinəsində,*
*Naxışına qurban olum.*

*Axın-axın gəlir ellər,*
*Əllərdə titrəşir güllər,*
*Şahnaz, gözdən axır sellər,*
*Görüşünə qurban olum.*